**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ İŞÇİLƏRİN ETİK DAVRANIŞ QAYDALARI

**«TƏSDİQ EDİRƏM»**
**Bakı Dövlət Universitetinin rektoru**
**_______________A.M.MƏHƏRRƏMOV**
**«____» «__________________» 2014-cü il**

Bakı Dövlət Universitetinin
Elmi Şurasının « 21 » « may » 2014-cü il
tarixli iclasının qərarı ilə qəbul edilmişdir.

**BAKI - 2014**

## 1. Ümumi müddəalar.

**1.1.** BDU işçilərinin etik davranış qaydaları (bundan sonra - Qaydalar) BDU-da çalışan işçilərin (bundan sonra – Universitet işçisi) Universitetdə davranışının normalarını, prinsiplərini və onlara əməl edilməsi ilə bağlı münasibətləri müəyyən edir.

**1.2.** Bu Qaydalar BDU-da çalışan bütün işçilərə şamil edilir.

**1.3.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitutiyasına, "Təhsil haqqında" və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunlarına və Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"na  müvafiq olaraq hazırlanmışdır.

**1.4.** BDU-nun işçiləri öz fəaliyyətində insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, humanizm və digər demokratik prinsipləri, yüksək etik davranış normalarını rəhbər tutaraq bu Qaydalara əməl etməyə borcludurlar.

## II. Universitetin işçilərinin etik davranış prinsipləri

**2.1. İnsanların hüquq, azadlıq, qanuni maraqlarına, şərəf və ləyaqətinə, işgüzar nüfuzuna hörmət prinsipi.**

Universitetin işçisi insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf və ləyaqətini, həmçinin işgüzar nüfuzunu ləkələyə biləcək qərarlar qəbul etməməli və hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Universitetin vəzifəli şəxsləri vəzifələrinin icrası ilə bağlı digər Universitet işçilərinin şəxsi həyatı barədə ona məlum olmuş məlumatların konfidensiallığını təmin etməlidirlər.

**2.2. Qanunçuluq prinsipi** - Universitetin işçisi vəzifələrinin icrası zamanı Azərbaycan Respublikasının Konstitusiyasına, Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa və Daxili Əmək Qaydalarının tələblərinə ciddi əməl etməlidir.

**2.3. Vıcdanlı davranış prinsipi** - Universitetin işçisi insan, cəmiyyət və dövlətin maraqları naminə öz xidməti vəzifələrini səmərəli yerinə yetirməyə borcludur. Bütün hallarda hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

**2.4. Loyallıq prinsipi** - Universitetin işçisi onun xidməti vəzifələrinə aid olmadığı hallarda, dövlət orqanlarının, onların rəhbərlərinin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidr. Bu qayda Universitetin işçisinin emi- pedaqoji fəaliyyəti ilə bağlı çıxışlarına və ya elmi yazılarına da şamil olunur.

**2.5 Mədəni davranış prinsipi** - Universitetin işçisi ünsiyyətdə olduğu şəxslərlə davranışında nəzakətli, diqqətli və təmkinli olmalıdır.

Universitetin işçisi xarici görkəminə xüsusi fikir verməli, səmimi, çalışqan, intizamlı. təşəbbüskar və hər zaman səliqəli olmalıdır.

**2.6. Qərəzsizlik prinsipi** - Universitetin işçisi xidməti vəzifəsini yerinə yetirərkən, o cümlədən qərar qəbul edərkən qərəzsiz olmalı və bu zaman irqinə, milliyyətinə, dilinə, cinsinə, sosial mənşəyinə, əmlak və qulluq vəziyyətinə, dinə münasibətinə, əqidəsinə, ictimai və ya digər birliyə mənsubiyyətinə görə hər hansı şəxsin və ya şəxslər qrupunun üstünlüyünə, yaxud belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

Universitetin işçisi öz qulluq vəzifələrindən kənar, o cümlədən başqa əməkdaşların səlahiyyətlərinə aid məsələlərə maraq göstərməməli, müdaxilə etməməli, onların icraatında olan sənəd və materialların həllinə təsir etməyə çalışmamalıdır.

**2.7. İctimai etimad prinsipi** – Universitetin işçisi bu adı, şərəf və ləyaqətini uca tutmağa borcludur.

Universitetin işçisi etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmalı, ictimai etimadın bərpası üçün tədbirlər görməlidir.

**2.8. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması prinsipi** – Universitetin işçisi öz vəzifə borcunun məsuliyyətini dərindən dərk etməli və peşəkarlıq səviyyəsinin artması üçün tədbirlər görməlidir.

## III. Universitet işçilərinin korrupsiyaya qarşı davranışı

**3.1.** Universitetin işçisi tərəfindən qanunsuz olaraq maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkətlər (hərəkətsizlik) etmək və ya qərarlar qəbul etmək qadağandır.

Universitetin işçisi onun hərəkətlərinin (hərəkətsizliyin və ya qərarlarının), qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə gətirib çıxarmasını istisna edən tədbirlər görməlidir.

Qanunvericilikdə müəyyən olunmuş ödəniş məbləğləri istisna olmaqla, Universitetin işçisi göstərdiyi xidmət müqabilində hər hansı haqq tələb edə bilməz.

**3.2.** Universitetin işçisi qanunsuz maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər təklif olunduğu hallarda onlardan imtina etməlidir. Maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər Universitetin işçisinə ondan asılı olmayan səbəblərdən verilirsə, o, bu barədə birbaşa rəhbərinə məlumat verməli, maddi və qeyri-maddi nemətlər, imtiyazlar və ya güzəştlər onun işlədiyi struktur bölməsinə akt üzrə təhvil verilməlidir.

**3.3.** Universitetin işçisi xidməti vəzifələrinin qərəzsiz icrasına təsir edə bilən və ya bu cür təsir təəssüratı yaradan və ya onun vəzifələrinin icrası müqabilində mükafat qismində verilən və ya bu cür mükafat təəssüratı yaradan hədiyyələri özü və ya digər şəxslər üçün tələb edə və ya qəbul edə bilməz. (Bu qayda qonaqrərvərliklə bağlı və ya dəyəri "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulmuş məbləğdən yuxarı olmayan hədiyyələrin təqdim olunduğu hallara şamil edilmir).

Universitetin işçisi hədiyyənin qəbul edilməsi və ya qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə birbaşa rəhbərinin rəyini öyrənməlidir.

**3.4.** Universitetin işçisi işlədiyi dövrdə maraqların toqquşmasına yol verməməli və qanunsuz olaraq öz vəzifə səlahiyyətlərindən şəxsi maraqları üçün istifadə etməməlidir.

## IV. Universitetin işçilərinin xidməti davranışı

**4.1.** Universitetin işçisinin xidməti davranışı qanunvericiklə ona verilmiş hüquqların həyata keçirilməsi və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar fəaliyyətidir.

Universitetin işçisinin xidməti bu Qaydalarla müəyyən edilmiş etik davranış normalarına və prinsiplərinə əsaslanmalıdır.

Universitetin işçisinin xidməti davranışı bu Qaydalara və digər normativ hüquqi və normativ xarakterli aktlara uyğun olaraq tənzimlənir.

Universitetin işçisi icra və əmək intizamına əməl etməli, iş vaxtını kənar işlərə sərf etməməli, üzürsüz səbəbdən işdən yayınmamalıdır.

**4.2.** Universitetin işçisi birbaşa və ya yuxarı rəhbərin qanunauyğun olan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur.

Universitetin işçisi birbaşa və ya yuxarı rəhbər tərəfindən ona verilən əmrin və ya tapşırığın qanuna və ya digər normativ hüquqi akta zidd olmasına əmindirsə, bu barədə yazılı əsaslandırmanı birbaşa və ya yuxarı rəhbərinə təqdim etməli, birbaşa rəhbərindən bu əmr və ya tapşırığın yazılı şəkildə təsdiq olunmasını tələb etməlidir. Birbaşa rəhbərindən yazılı şəkildə təsdiq edilmiş əmr və ya tapşırıq almasına baxmayaraq, Universitetin işçisi onların qanuna, yaxud digər normativ hüquqi akta zidd olmasına inanmağa davam edərsə, o, həmin əmr və ya tapşırığı yerinə yetirməkdən imtina edə bilər. Qanuni göstərişlərin yerinə yetirilməməsi intizam məsuliyyətinə səbəb olur.

**4.3.** Universitetin işçisi subordinasiya tabelik məsələlərinə diqqət yetirməli, sikayət halları istisna olmaqla, yuxarı rəhbərinə yalnız birbaşa rəhbəri vasitəsilə müraciət etməlidir.

Universitetin işçisi vəzifəsi ilə bağlı tədbirlərdə iştirakı barədə əvvəlcədən bilavasitə rəhbərini məlumatlandırmalıdır.

**4.5.** Universitetin işçisi istifadəsində olan dövlət əmlakından, rabitə, kompüter və digər kommunikasiya sistemlərindən və diğər maddi-texniki təchizat avadanlıqlarından qənaətlə və səmərəli istifadə etməlidir. Onlardan şəxsi maraqları naminə istifadə etməsi qadağandır.

**4.6.** Universitetin işçisi işlədiyi müddət ərzində əldə etdiyi məlumatları şəxsi maraqları üçün istifadə edə bilməz.

## V. Universitetin işçilərinin işdənkənar davranışı

**5.1.** Universitetin işçisi şəxsi həyatında ümumi qəbul olunmuş milli əxlaq və ictimai davranış normalarına əməl etməlidir.

**5.2.** Universitetin işçisi icra etmək imkanı olmayacağı təqdirdə maddi öhdəlik (kredit, borc, pul, kirayə və s.) götürməməlidir. Üzərinə görürdüyü öhdəlikləri müəyyənləşdirilmiş şərtlərə uyğun icra etməlidir.

**5.3.** Universitetin işçisi öz ailə üzvlərinin, habelə sosial və digər münasibətlərin onun xidməti fəaliyyətinə nüfuz etməsinə yol verməməlidir.

**5.4.** Universitetin işçisi vəzifəsindən və qulluq mövqeyindən şəxsi məqsədləri üçün istifadə etməməli, zərurət olmadıqda Universitetin işçisi olduğunu qabartmamalı və xidməti vəsiqəni təqdim etməməlidir.

## VI. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması

**6.1.** Etik davranış qaydalarına əməl olunmasına nəzarəti müvafiq struktur bölməsinin rəhbəri həyata keçirir.

**6.2.** Etik davranış qaydalarına əməl edilməsi ilə bağlı aşagıdakılar həyata keçirilir:

- Universitetin işçiləri arasında onların tutduqları vəzifələrə uyğun olaraq vəzifə bölgüsü aparılmalıdır;
- rəhbər işçilər tərəfindən tabeliyində olan şəxslər hüquqa və hamılıqla qəbul edilmiş etik normalara zidd olan hərəkət etməyə və qərarlar qəbul etməyə sövq edilməməlidir;
- Universitetə işçilərin seçilməsi və yerləşdirilməsi zamanı qanunvericiliyin tələblərinə əməl edilməlidir;
- etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə tədbirlər görülməlidir;
- Universitetin işçilərinə etik davranış qaydaları izah edilməli və müraciət olunduğu təqdirdə etik davranış qaydalarına əməl olunmasına dair onlara tövsiyyələr verilməlidir;
- etik davranış qaydalarını pozan işçilərin intizam məsuliyyətinə cəlb edilməsi üçün tədbirlər görülməlidir;
- etik davranış qaydalarına əməl olunması ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş diğər vəzifələr həyata keçirilməlidir.

**6.3.** Etik davranış qaydalarının pozulması Universitetin işçisinin intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

**6.4.** Universitetin işçisinin intizam məsuliyyətinə cəlb edilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müddətdə həyata keçirilir.

**6.5.** Bu qaydaların müddəalarının Universitetin işçisi tərəfindən pozulması barədə şikayət və ya diğər məlumat daxil olduqda xidməti yoxlama aparılarkən ona verilən sualları tam, səmimi və obyektiv cavablandırmalıdır.

**6.6.** Xidməti yoxlama zamanı Universitetin işçisi tərəfindən yol verilən hüquq pozuntusunda cinayət tərkibinin əlamətləri aşkar edildikdə, həmin əlamətləri aşkar etmiş struktur bölmənin rəhbəri bu barədə rektora məlumat verməlidir.

**6.7.** Universitetin işçilərinin etik davranışı ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan məsələlər "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**6.8.** Universitetin professor-müəllim heyətinin etik davranışı ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan məsələlər "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və "Müəllimlərin etik davranış qaydaları" ilə tənzimlənir.